AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

1 MART 2019-cu il CÜMƏ № 49 (6376) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## İ.A.Berdiyevin “Dostluq” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan və Rusiya xalqları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Berdiyev İsmayıl Aliyeviç “Dostluq” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 fevral 2019-cu il.**

## S.M.Qəhrəmanovanın 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Sədaqət Məmmədyar qızı Qəhrəmanova 2-ci dərəcəli “Əmək” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 fevral 2019-cu il.**

## Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

**1.** 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984-2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2019-cu il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2019-cu il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 fevral 2019-cu il.**

## “Türk Mədəniyyəti və İrsi Fondunun maliyyə qaydaları haqqında” Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Türk Mədəniyyəti və İrsi Fondunun maliyyə qaydaları haqqında” 2018-ci il sentyabrın 2-də Bişkek şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 fevral 2019-cu il.**

# Prezident İlham Əliyev Mərkəzçi Demokrat İnternasionalının Prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrananın başçılıq etdiyi, bu qurumun baş katibi Antonio Lopez-İsturiz və Asiya və Sakit okean regionu üzrə baş əlaqələndiricisi Sezar Rosellonun daxil olduğu nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev səfərin və aparılan müzakirələrin ölkəmizlə bu təsisat arasında əməkdaşlıq və dialoqun inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.

Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrana rəhbərlik etdiyi təşkilatın gündəliyində duran məsələlər və həyata keçirilən tədbirlər barədə məlumat verdi. O, səfər çərçivəsində məcburi köçkünlərlə görüşdüklərini və Azərbaycan hökuməti tərəfindən onların həyat şəraitinin yaxşılaşdırılması üçün görülən sosial təyinatlı işlərin nümunəvi olduğunu bildirdi.

Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin problemlərinin daim diqqət mərkəzində saxlanıldığını qeyd edərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin doğurduğu fəsadlar və münaqişənin həlli prosesi barədə danışdı.

Görüşdə, həmçinin Mərkəzçi Demokratlar İnternasionalı ilə Azərbaycan, xüsusilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikasında əhalinin rifahını yüksəltmək, sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritetlərindəndir.

Bu istiqamətdə həyata keçirilən tədbirlər, reallaşdırılan iqtisadi və institusional islahatlar vətəndaşların yaşayış səviyyəsinin yaxşılaşmasında, yeni iş yerlərinin açılması sayəsində əhalinin məşğulluğunun və gəlirlərinin artmasında, yoxsulluq səviyyəsinin daha da azalmasında öz müsbət nəticələrini göstərməkdədir.

Lakin qlobal iqtisadi və maliyyə böhranının ölkə iqtisadiyyatına təsirləri əhalinin müəyyən qrupunun ödəmə qabiliyyətinin zəifləməsinə, bunun da nəticəsində, kredit təşkilatlarından xarici valyutada borc almış vətəndaşların bank sistemi qarşısında vaxtı keçmiş kreditlər üzrə öhdəliklərinin artmasına və bu öhdəliklərin yerinə yetirilməsi ilə bağlı məsələlərə məhkəmə müstəvisində baxılma hallarının çoxalmasına rəvac vermişdir.

Son dövrdə respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması və maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, əhalinin xarici valyutada olan ödəmə vaxtı keçmiş kredit borclarının ödənilməsinə də dövlət dəstəyi göstərilməsi üçün şərait yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dünya bazarında neftin qiymətinin 3-4 dəfə azalması ilə bağlı baş vermiş devalvasiya nəticəsində fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisini qarşılamaq, o cümlədən problemli kreditlər məsələsinin həllinə dövlət dəstəyini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Aşağıda qeyd olunan tarixlərə fiziki şəxslərin banklara 10 000 (on min) ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi aşağıdakı qaydada qiymətləndirilməklə, bu Fərman qüvvəyə mindiyi günə Azərbaycan Respublikası Mərkəzi Bankının elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödənilsin:

*1.1.* 2015-ci il fevralın 21-nə xarici valyutada mövcud olan əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,25 manat (0,15 ABŞ dolları) kimi;

*1.2.* 2015-ci il fevralın 22-dən həmin il dekabrın 21-dək bağlanmış kredit müqavilələri üzrə xarici valyutada əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,6 manat (0,35 ABŞ dolları) kimi;

*1.3.* 2015-ci il fevralın 21-nə və dekabrın 21-nə mövcud olmuş xarici valyutada əsas kredit borclarına münasibətdə - bu Fərmanın 1.1-ci və 1.2-ci bəndlərində qeyd olunan hər iki qaydada nəzərdə tutulduğu kimi.

**2.** Bu Fərmanın 1-ci hissəsinə əsasən edilən ödəniş, ilk növbədə, fiziki şəxslərin banklar və ləğvetmə prosesində olan banklar qarşısında ödəniş müddəti keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldilsin, qalan məbləğ isə həmin fiziki şəxslərin sərəncamına verilsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası:

*3.1.* Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə birlikdə bu Fərmanın 1-ci hissəsində göstərilən tələblər nəzərə alınmaqla, fiziki şəxslərin xarici valyutada olan kreditlərinin əsas məbləğinin devalvasiya nəticəsində manatla artmış hissəsinin ödənilməsi mexanizmini (qaydasını), habelə həmin məbləğə hesablanmış faiz və dəbbə pulu (cərimə, penya) üzrə tətbiq ediləcək güzəştləri müəyyən edərək, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla on beş gün müddətində təsdiq etsin;

*3.2.* bu Fərmanın 1-ci hissəsinə əsasən ediləcək ödənişin ümumi məbləğini, ödəniş ediləcək fiziki şəxslərin siyahısını və hər bir fiziki şəxsə ödəniləcək vəsaitin məbləğini qırx beş gün müddətində müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Mərkəzi Bankına məlumat versin.

**4.** Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsinə əsasən bir fiziki şəxsə ödəniləcək vəsaitin ümumi məbləği 5 000 (beş min) ABŞ dollarının manat ekvivalentindən çox olmamalıdır.

**5.** Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

*5.1.* bu Fərman qüvvəyə mindiyi tarixə fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 000 (on min) ABŞ dollarınadək, milli valyutada isə 17 000 (on yeddi min) manatadək olan kreditlər üzrə vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə, Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının müraciəti əsasında, banklara 682 000 000,0 (altı yüz səksən iki milyon) manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilmiş güzəştli kredit verilməsini təmin etsin;

*5.2.* bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulan tədbirlər nəticəsində bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılmış kreditin hesabına banklara, onların müraciəti əsasında 215 000 000,0 (iki yüz on beş milyon) ABŞ dolları dəyərinədək xarici valyutada ifadə olunmuş, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızların verilməsini təmin etsin;

*5.3.* bu Fərmandan irəli gələn digər tədbirlərin həyata keçirilməsini təmin etsin.

**6.** Banklara tövsiyə edilsin ki:

*6.1.* bu Fərmanın 7.1-ci bəndində nəzərdə tutulan siyahı üzrə vaxtı keçmiş kredit borcu olan fiziki şəxslərə yeni güzəştli kredit müqaviləsi bağlanmasını təklif etsinlər;

*6.2.* fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiya olunacağını nəzərə alaraq, banklar bir ay müddətində həmin kreditlərə hesablanmış faizlərin silinməsini və məhkəmədə olan işlərin geri çağırılmasını təmin edən tədbirlər görsünlər;

*6.3.* borcları restrukturizasiya olunmuş fiziki şəxslərin borc yükünün yüngülləşdirilməsini təmin edən digər tədbirlər görsünlər.

**7.** Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası:

*7.1.* banklarla birlikdə bir ay müddətində fiziki şəxslərin xarici valyutada əsas məbləği 10 000 (on min) ABŞ dollarınadək, milli valyutada isə 17 000 (on yeddi min) manatadək olan kreditləri üzrə vaxtı keçmiş və bu Fərmana əsasən hər bir bank üzrə restrukturizasiya olunmalı kredit borclarının məbləğini və borcluların siyahısını müəyyən edərək, bu barədə Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Mərkəzi Bankına məlumat versin;

*7.2.* bu Fərmanın 1-ci və 2-ci hissələrinin banklar tərəfindən icrasını nəzarətdə saxlasın və həmin hissələr icra edildikcə, bu Fərmanın 5.1-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankına müraciət etsin;

*7.3.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**8.** Müəyyən edilsin ki, bu Fərmanın məqsədləri üçün:

*8.1.* fiziki şəxslərin xarici valyutada 10 000 (on min) ABŞ dollarınadək və ya milli valyutada 17 000 (on yeddi min) manatadək olan əsas kredit borcları dedikdə onların bütün banklara və ləğvetmə prosesində olan banklara əsas kredit borclarının qalıq məbləğinin cəmi;

*8.2.* 10 000 (on min) ABŞ dollarınadək və ya 17 000 (on yeddi min) manatadək məbləğ dedikdə müvafiq olaraq 10 000 (on min) ABŞ dollarının və ya 17 000 (on yeddi min) manatın da daxil olduğu məbləğ;

*8.3.* bu Fərmanın 5-ci və 7-ci hissələrində fiziki şəxslərin kredit borcları dedikdə onların 2012-ci il yanvarın 1-dən bu Fərman qüvvəyə mindiyi günədək bağlanmış kredit müqavilələrinə əsasən bütün banklara və ləğvetmə prosesində olan banklara əsas kredit borclarının qalıq məbləğinin cəmi;

*8.4.* bank dedikdə banklar və bank olmayan kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla);

*8.5.* ləğvetmə prosesində olan bank dedikdə ləğvetmə prosesində olan banklar və bank olmayan kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla);

*8.6.* vaxtı keçmiş kredit borcu dedikdə fiziki şəxslərlə 2012-ci il yanvarın 1-dən bu Fərman qüvvəyə mindiyi günədək bağlanmış kredit müqavilələri üzrə əsas məbləğin və (və ya) faiz borclarının ödənilməsi 360 gündən çox gecikdirilmiş borclar;

*8.7.* restrukturizasiya dedikdə əsas kredit borclarının ödənilməsi məqsədilə fiziki şəxslərə güzəştli kreditlərin verilməsi;

*8.8.* güzəştli kredit dedikdə fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiyası məqsədilə onlara banklar tərəfindən illik faiz dərəcəsi 1 faiz, banklara isə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən illik faiz dərəcəsi 0,1 faiz olmaqla 5 il (1 il güzəşt müddəti ilə) müddətinə verilən kreditlər;

*8.9.* faizlərin silinməsi dedikdə vaxtı keçmiş kredit borcları üzrə hesablanmış faizlərin və dəbbə pulunun (cərimə, penya) silinməsi;

*8.10.* məhkəmədə olan işlərin geri çağırılması dedikdə vaxtı keçmiş kredit borcları ilə bağlı məhkəmələrdə olan iddialardan imtina edilməsi və icra sənədi üzrə icraata xitam verilməsi ilə əlaqədar Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin və “İcra haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun tədbirlər görülməsi nəzərdə tutulur.

**9.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

*9.1.* bu Fərmanın 5.1-ci bəndində nəzərdə tutulan dövlət zəmanətinin rəsmiləşdirilməsi üçün zəruri tədbirlər görsün;

*9.2.* bu Fərmandan irəli gələn digər tədbirlər görsün.

**10.** Əmanətlərin Sığortalanması Fonduna və ləğvedici funksiyalarının həvalə olunduğu digər şəxslərə tövsiyə edilsin ki, ləğvetmə prosesində olan banklarda fiziki şəxslərin vaxtı keçmiş əsas kredit borclarının restrukturizasiyasını təmin edən tədbirlər görsünlər.

**11.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 28 fevral 2019-cu il.**

# AZƏRTAC: Dünya informasiya məkanına gedən yol və ya uğur açarı

## *Azərbaycanın ilk milli xəbər agentliyi olan AZƏRTAC-ın fəaliyyətə başlamasından 99 il ötür*

**Azərbaycanın ilk milli xəbər agentliyi olan AZƏRTAC təlatümlü, geosiyasi baxımdan olduqca mürəkkəb, eyni zamanda, xalqımız üçün taleyüklü bir dövrdə yaranmışdı. Hadisələrin axarının hər an dəyişdiyi, müstəqil dövlətimizin başı üzərində qara buludlar dolaşdığı vaxtlar idi. Onun ilk xəbərinin işıq üzü görməsindən heç iki ay keçməmiş Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Üçrəngli, ay-ulduzlu bayrağımızın yerində sovet imperiyasının oraq-çəkicli qırmızı bayrağı asıldı. Beləcə, AZƏRTAC da millilikdən çıxıb ideoloji maraqlara xidmət etməli oldu.**

**Nəhayət, 28 il əvvəl azadlıq günəşi üzümüzə yenidən doğdu və AZƏRTAC-ın həyatında da yeni dövr başladı. O, indi beynəlxalq informasiya məkanında layiqli yer və mövqe tutan, dünyanın informasiya nəhəngləri ilə bir sırada dayanan, bütün qitələrdəki həmkarları ilə sıx əlaqələr qurub xəbər mübadiləsi aparan, səkkiz dildə xəbər yayan, xaricdə 22 müxbir məntəqəsi olan agentlikdir.**




### Tarixə qısa baxış

1919-cu il... Azərbaycan parlamentində və hökumətində milli xəbər agentliyinin yaradılması ilə bağlı qızğın müzakirələr gedir və bunun üçün imkanlar axtarılırdı. Təşkilati işlər, texniki avadanlıq əldə olunması və kadr axtarışları xeyli vaxt apardı.

1920-ci il martın 1-i... Qəzetlərdə "AZƏRTAC" imzası ilə ilk xəbər dərc olundu. İş yenicə sürət yığmağa başlamışdı ki, Cümhuriyyət süquta uğradı. Zamanın sərt küləkləri AZƏRTAC-ı da silkələməyə başladı. Azərbaycanın keçmiş SSRİ-nin tərkibində olduğu 70 ildə agentliyin adı yeddi dəfə dəyişdirildi. O, faktiki olaraq Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) yerli filialına çevrildi. Həmin dövrün ziddiyyətlərinə və mürəkkəbliyinə, təbliğatın bütünlüklə sovet ideologiyası üzərində qurulmasına baxmayaraq, agentlik Azərbaycanın salnaməsini yazmaqda davam etdi.

1991-ci il oktyabrın 18-i... Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə milli mətbuatımızın, o cümlədən AZƏRTAC-ın qarşısında yeni üfüqlər açıldı. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimizin milli maraqlara köklənən ideoloji əsasları quruldu və burada mediaya xüsusi yer ayrıldı. Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq bir nömrəli vəzifə kimi qarşıya qoyuldu. Ulu Öndər bunun çox vacib olduğunu böyük uzaqgörənliklə vurğulayaraq deyirdi: "AZƏRTAC-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır". O vaxtdan etibarən agentlik öz fəaliyyətini, qüvvə və səylərini bu istiqamətə yönəltməyə başladı...

### Bütün qitələrlə əməkdaşlıq və xəbər mübadiləsi

İnformasiyanın dünya siyasətinə təsirinin xüsusilə gücləndiyi, xəbər istehsalçılarının gündən-günə çoxaldığı, sosial şəbəkə mediasının insanların gündəlik həyatına daxil olduğu bir vaxta beynəlxalq məkana yol tapmağın aramsız iş və axtarışlar, eləcə də həmkarlarla ünsiyyət qurmaq bacarığı tələb etdiyi sirr deyil. Digər tərəfdən etibarlı, dürüst xəbər qaynağı kimi tanınmalı, həmkarların inam və etimadını qazanmalısan.

Təxminən 20-25 il əvvəl belə uzun və çətin yola çıxan AZƏRTAC ötən müddətdə 50-yə yaxın xarici xəbər agentliyi ilə əməkdaşıq müqaviləsi imzalayıb, hazırda 150-dək agentliklə informasiya mübadiləsi aparır. Onların arasında bütün qitələrdən olan aparıcı agentliklər, o cümlədən TASS (Rusiya), Sinxua (Çin), Anadolu (Türkiyə), İRNA (İran), ANSA (İtaliya), Ukrinform (Ukrayna), BELTA (Belarus), MTİ (Macarıstan), Yonhap (Koreya Respublikası), Kazinform (Qazaxıstan), KYODO (Yaponiya), TELAM (Argentina), SPA (Səudiyyə Ərəbistanı) və digər nüfuzlu xəbər yayımçıları var.

2004-cü ildə Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına (OANA), 2008-ci ildə Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilən AZƏRTAC, eyni zamanda, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli Xəbər Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir.

Bu istiqamətlərdə aparılan məqsədyönlü və fəal iş, qarşılıqlı faydalı əməkdaşlıq AZƏRTAC-ın eyni vaxtda iki mötəbər beynəlxalq media qurumuna sədr seçilməsi ilə nəticələndi.

### Dünyanın iki ən böyük media qurumuna sədrlik

AZƏRTAC 2016-cı ildən iki ən böyük beynəlxalq media qurumuna - Dünya Xəbər Agentlikləri Konqresinə, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına sədrlik edir. Öz sıralarında dünyanın informasiya nəhənglərini birləşdirən bu təşkilatlara rəhbərlik etmək hüququ rotasiya qaydasında deyil, açıq səsvermə yolu ilə əldə olunub. Bu yerdə Vyetnam Xəbər Agentliyinin (VNA) baş direktoru Nquyen Duk Loinin sözlərini xatırlatmaq yerinə düşər: "Biz AZƏRTAC-ın Dünya Xəbər Agentlikləri Konqresində, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatında liderlik fəaliyyətinə inanırıq".





Agentliyin həyatında ən əlamətdar hadisələrdən biri 2016-cı ildə baş verdi. Bakı eyni vaxtda Dünya Xəbər Agentlikləri Konqresinə və OANA-ya ev sahibliyi etdi və bununla da Azərbaycanın və AZƏRTAC-ın adı dünya media tarixinə yazılmış oldu. Beş qitəni, 80 ölkəni və dünyanın 100-dən çox aparıcı xəbər agentliklərini təmsil edən 200 nümayəndənin iştirak etdiyi bu tədbirlər Heydər Əliyev Fondunun və bilavasitə Fondun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi sayəsində yüksək səviyyədə keçdi və yaddaşlarda dərin iz qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin konqresin açılışında iştirakı, geniş nitq söyləməsi, daha sonra iştirakçıların bir qrupunu qəbul etməsi bu qlobal forumlara xüsusi ahəng verdi. Dövlətimizin başçısının açılış nitqində qeyd etdiyi kimi, Dünya Xəbər Agentlikləri Konqresinin Bakıda keçirilməsi müstəqil medianın inkişafı sahəsində Azərbaycanın fəaliyyətinin və nailiyyətlərinin yüksək qiymətləndirilməsinin göstəricisidir.

AZƏRTAC hazırda bu iki beynəlxalq media qurumuna sədrliyi uğurla davam etdirir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında onların imkanlarından maksimum bəhrələnməyə çalışır.

### İnformasiya nəhəngləri ilə bir sırada

AZƏRTAC dünya xəbər məkanına getdikcə daha inamla çıxır, informasiya nəhəngləri ilə bir sırada addımlayır. Bu, təbii ki, dinamik inkişaf edən Azərbaycana artan maraqla, ölkəmizin dünyada söz və nüfuz sahibinə çevrilməsi ilə şərtlənir. Uğur açarı da elə budur.

Xarizmatik lider olan Prezident İlham Əliyev Azərbaycanı müasirləşdirmək, modernləşdirmək yolu seçib. Ölkəmizdə aparılan islahatlar dünyanın diqqətini cəlb edir və yüksək dəyərləndirilir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub.

Bu inqilabi yeniləşmə ruhu ölkə mediasına da sirayət edir. Dövlətimizin başçısının diqqət və qayğısı, dəstəyi sayəsində AZƏRTAC müasir informasiya texnologiyaları ilə təchiz olunub. Agentliyin rəhbərliyi və nümayəndələri yüksəksəviyyəli media forumlarında mütəmadi iştirak etmək imkanı qazanıb. Eyni zamanda, dünyanın bir çox informasiya nəhəngləri müasir Azərbaycanın milli informasiya agentliyi ilə əməkdaşlıqda maraqlıdır.

Bu yaxınlarda İdarə Heyətinin sədri Aslan Aslanovun Pekində Çinin ingilis dilində nəşr olunan gündəlik "China Daily" qəzetinin rəhbərliyi ilə görüşündə iki media qurumunun əməkdaşlığı genişləndirmək istəyi ifadə olunub. Ümumilikdə 100 milyondan çox çap və onlayn abunəçisi olan "China Daily" təkcə Çində deyil, regionda, eləcə də dünyada ingilis dilində çıxan ən nüfuzlu qəzetlərdən biridir.

AZƏRTAC Dünya Xəbər Agentlikləri Konqresi Şurası çərçivəsində Associated Press, Reuters, Press Association, DPA agentlikləri ilə sıx əməkdaşlıq edir. Sinxua agentliyinin prezidenti Çay Mincao və nazir statusunda baş redaktoru Hi Pinq, Press Association agentliyinin icraçı direktoru Klayv Marşal, DPA agentliyinin prezidenti Piter Korpş, TASS-ın baş direktoru Sergey Mixaylov və baş direktorun birinci müavini Mixail Qusman, SPA agentliyinin prezidenti Abdullah bin Fəhd əl-Hüseyn, KUNA xəbər agentliyinin İdarə Heyətinin sədri Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabah, FANA-nın baş katibi Fərid Əyyar və başqaları Azərbaycana dostcasına münasibət bəsləyir, AZƏRTAC-a daim dəstək olurlar.





### Səkkiz dildə gündəlik 500 xəbər

Bu gün AZƏRTAC fasiləsiz olaraq səkkiz dildə - Azərbaycan, rus, ingilis, alman, fransız, ispan, ərəb və Çin dillərində gündə orta hesabla 500-dək informasiya, o cümlədən video və foto xəbərlər yayır. O, beş qitənin hamısını əhatə edən geniş müxbir şəbəkəsinə malikdir. Agentliyin izləyici auditoriyası milyonlarla ölçülür.

Daha bir il ötəcək və Azərbaycanın ilk milli informasiya agentliyi yaranmasının 100 illiyini qeyd edəcək. Yayım coğrafiyasını və oxucu auditoriyasını daha da genişləndirmək, yeni əməkdaşlıq əlaqələri qurmaq, yeni dostlar tapmaq, Azərbaycanın səsini və sözünü daha uzaqlara çatdırmaq - AZƏRTAC-ın yubiley ili üçün hədəfləri belədir.

**AZƏRTAC**

# Nazirlər Kabinetinin növbəti iclası keçirilib



**Fevralın 28-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinə "İcbari tibbi sığortanın tətbiqi üzrə pilot layihənin icrasının yekunları və qarşıda duran vəzifələr", "Vergi və gömrük güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsi və vergilər sahəsində şəffaflığın təmin edilməsi, vergi mədəniyyətinin formalaşdırılması, real vergi potensialının müəyyən edilməsi və münbit vergi mühitinin yaradılması istiqamətində qarşıya çıxan problemlər" və "Təbii, iqlim və digər xüsusiyyətləri nəzərə alınmaqla, iqtisadi rayonların kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşdırılması məsələləri" ilə bağlı mövzular daxil edilib.

Gündəlikdəki birinci məsələ barədə danışan Baş nazir Novruz Məmmədov qeyd edib ki, son illər ölkəmizdə bütün istiqamətlərdə olduğu kimi, səhiyyə sahəsində də geniş islahatlar aparılıb. Bu islahatların mühüm istiqamətlərindən biri də icbari tibbi sığortanın tətbiqi üzrə görülən işlərdir. Əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsində icbari tibbi sığortanın tətbiqinin xüsusi əhəmiyyət daşıdığını bildirən Novruz Məmmədov deyib ki, bununla bağlı artıq qanunvericilik bazası da yaradılıb. Azərbaycan Respublikasının Prezidentinin müvafiq fərmanları ilə Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqi pilot layihə olaraq həyata keçirilməkdədir.

Novruz Məmmədov Azərbaycan Respublikasının Prezidentinin vergi və gömrük sahələrində şəffaflığın təmin edilməsi və səmərəliliyin artırılması, eləcə də iqtisadi rayonların kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşdırılması barədə qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində hökumətin gördüyü işlər və qarşıda duran vəzifələrlə bağlı məlumat verib.

Sonra gündəlikdəki məsələlərə dair İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyevin, vergilər naziri Mikayıl Cabbarovun, kənd təsərrüfatı naziri İnam Kərimovun məruzələri dinlənilib.

AZƏRTAC

*Hikmət Hacıyev:*

## Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar formatı bəllidir

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın baş naziri Nikol Paşinyanın danışıqlar prosesinin formatı ilə bağlı açıqlamasını AZƏRTAC-a şərh edərək deyib:**



-Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar formatı bəllidir, formatın dəyişdirilməsi müzakirə mövzusu deyil və ola da bilməz. Danışıqlar prosesi ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə münaqişə tərəfləri olaraq Ermənistan və Azərbaycan arasında aparılır. Ermənistandakı hakimiyyət dəyişikliyindən sonra Prezident İlham Əliyev və Nikol Paşinyan arasında üç dəfə təmasın olması, Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında dörd dəfə görüşün keçirilməsi danışıqların mövcud format əsasında aparılmasının bariz nümunəsidir.

Ermənistan rəhbərliyinin danışıqlar prosesinin formatının dəyişdirilməsi barədə iddiaları qəsdən danışıqları dalana salmaq və danışıqlar prosesini pozmaq cəhdlərindən başqa bir şey deyil. Buna görə məsuliyyət tam şəkildə Ermənistan tərəfinin üzərinə düşür.

AZƏRTAC

# "Balaca şahzadə" Dövlət Musiqili Teatrının səhnəsində





**Fevralın 28-də Azərbaycan Dövlət Musiqili Teatrında məşhur fransız yazıçısı Antuan de Sent-Ekzüperinin "Balaca şahzadə" əsərinin motivləri əsasında hazırlanan tamaşanın premyerası olub.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tamaşanın premyerasına baxıb.

Premyeradan əvvəl tamaşanın quruluşçu rejissoru, Xalq artisti Cənnət Səlimova səhnə əsəri ilə bağlı təəssüratlarını bölüşüb. Antuan de Sent-Ekzüperinin kitablarının dünyada hər zaman yüksək tirajla satıldığını deyən rejissor bildirib ki, belə böyük yazıçıların əsərlərinin tərcümə olunub Azərbaycan teatrlarında səhnələşdirilməsi sevindirici haldır. "Tamaşanın ərsəyə gətirilməsi bizim üçün texnoloji baxımdan çətin idi. Lakin yaradıcı heyət bunun öhdəsindən məharətlə gələ bildi. Nəhayət, iki il sonra tamaşanın premyerası reallaşdı. Şadam ki, bu gün belə möhtəşəm tamaşanın premyerasına toplaşmışıq", - deyə o qeyd edib.

Səhnə əsərinin süjet xəttində balaca şahzadənin müxtəlif planetlərə səyahətləri obrazlı şəkildə təsvir olunur. Onun qarşılaşdığı personajlarla ünsiyyəti tamaşaçıya fəlsəfi mesajlar verir, böyüklərin dünyası, düşüncələri, həyat fəlsəfəsi, sevgi mövzusu balaca bir uşağın gözü ilə və ibrətamiz kəlamlarla anladılır.

Tamaşanın qeyri-adi səhnə tərtibatı var. Arxa fonda iri monitorlarda göstərilən animasiyalarla aktyorların və balet artistlərinin sinxron şəkildə canlandırdıqları gözəl ifalar, dolğun və cəlbedici rəqs hərəkətləri, ifaçıların oyunu ilə ekrandakı hadisələrin möhtəşəm sintezi, həm də sənət ocağının səhnəsində daha bir yenilikdir.

Maraqla qarşılanan tamaşanın səhnə qrafikası Mehdi Məmmədova, video quraşdırmaları isə Bakı Media Mərkəzinə məxsusdur.

Balaca şahzadə obrazını Musiqili Teatrın azyaşlı iki aktyoru - adı "Qızıl kitab"a yazılan Prezident təqaüdçüsü Atilla Məmmədov və Rahib Məmmədzadə canlandırıblar. Digər rolları Əməkdar artistlər Ələkbər Əliyev, Şövqi Hüseynov, aktyorlar Əmrah Dadaşov, Nicat Əli, Aydan Həsənova, Əliməmməd Novruzov, Məhərrəm Qurbanov, Hüseyn Əlili, Rauf Babayev, Emil Heydərov, İbrahim Əlizadə ifa ediblər. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, bəstəkarı ABŞ-da yaşayan həmyerlimiz, beynəlxalq müsabiqələr laureatı Ruslan Ağababayev, musiqi rəhbəri Əməkdar artist Vaqif Məstanov, rəssamı Məryəm Ələkbərli, xoreoqrafı Rusiyanın Əməkdar incəsənət xadimi, dünya şöhrətli baletmeyster Sergey Gritsay, baletmeysterləri Əməkdar artistlər Zakir və Yelena Ağayevlər, səhnələşdirəni Azərbaycan Yazıçılar Birliyinin katibi, şair, yazıçı-publisist İlqar Fəhmidir.

AZƏRTAC

# Xocalı faciəsi qurbanlarının xatirəsi Rumıniyada dərin ehtiramla anılıb





**Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı silsilə tədbirlər çərçivəsində Buxarestdə yerləşən Rumıniya Milli Kitabxanasında anım mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Rumıniyada akkreditə olunmuş diplomatik korpusun rəhbərləri, nümayəndələri, ziyalılar, universitetlərin professor və tələbə heyətləri, Türk İş Adamları Dərnəyinin, Türk-Tatar Birliyinin, "SOCAR Petroleum SA" şirkətinin əməkdaşları, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyəti, Rumıniya-Azərbaycan İkitərəfli Sənaye və Ticarət Palatası, Rumıniya-Azərbaycan Mədəniyyət və Gənclər Assosiasiyası İdarə heyətlərinin üzvləri, bu ölkədə yaşayan və təhsil alan azərbaycanlılar, yerli jurnalistlər iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Anım mərasimini giriş sözü ilə açan Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfov qeyd edib ki, Xocalı faciəsi Azərbaycan xalqına və insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biridir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməyi ilə Xocalı şəhərində qadın, qoca və uşaqlar da daxil olmaqla yüzlərlə günahsız dinc əhaliyə qarşı ən qəddar cinayətlər törədiblər.

Səfir bildirib ki, erməni millətçilərinin "böyük Ermənistan" yaratmaq xülyası ilə Azərbaycan xalqına qarşı törətdikləri bu qətliam nəticəsində 106-sı qadın, 63-ü uşaq və 70-i yaşlı insan olmaqla 613 nəfər qətlə yetirilib, 1275 sakin girov götürülüb, 150 nəfərin taleyi isə bu günədək naməlum olaraq qalmaqdadır. Həmin gecə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib, 76-sı uşaq olmaqla 487 nəfər yaralanıb.

Bunun insanlığa sığmayan, öncədən planlaşdırılmış, milli mənsubiyyətinə görə insanların məhv olunması xarakteri daşıyan bir cinayət olduğu və buna görə də beynəlxalq hüquqa əsasən Xocalı faciəsinin soyqırımı olması tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Səfir qeyd edib ki, yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu qanlı faciəyə siyasi-hüquqi qiymət verildi. 1994-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti tərəfindən 26 fevral Xocalı soyqırımı günü elan edildi.

Xocalı faciəsinin dinc əhaliyə qarşı yönəldilmiş soyqırımı kimi tanıdılması və bu barədə bütün həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü və ardıcıl fəaliyyət həyata keçirildiyini deyən H.Nəcəfov qeyd edib ki, 2008-ci il mayın 8-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq informasiya və təbliğat kampaniyasına başlanılıb. Ötən müddət ərzində "Xocalıya ədalət!" kampaniyası çərçivəsində 70-dən çox ölkədə müxtəlif tədbirlər təşkil edilib. Dünyanın 10-dan çox ölkəsinin parlamenti, 57 ölkəni özündə birləşdirən İslam Əməkdaşlıq Təşkilatı, eləcə də ABŞ-ın 20-dən çox ştatının qanunverici orqanı Xocalı qətliamının soyqırımı olduğunu təsdiq ediblər.

Səfir hər il Xocalı soyqırımının ildönümünün respublikamızda və dünyanın müxtəlif ölkələrində ürəkağrısı ilə qeyd olunduğunu bildirib. Diplomat diqqətə çatdırıb ki, Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda ön sıralarında Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın olduğu ümumxalq yürüşü keçirilib.

Sonra Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edib. Əli Həsənov qeyd edib ki, son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə dəfələrlə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törədiblər. Erməni xalqının bir neçə nəsli milli müstəsnalıq, Azərbaycan xalqına qarşı düşmənçilik ruhunda tərbiyə edilib, erməni "alim"lərinin səyləri ilə bölgənin tarixi saxtalaşdırılıb, azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparılıb.




Prezidentin köməkçisi XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilərin SSRİ-də yaranmış siyasi vəziyyətdən istifadə edərək Azərbaycana qarşı açıq ərazi iddiası irəli sürmələrindən, Ermənistanda yaşayan 200 minə qədər azərbaycanlının deportasiya edilməsindən, Dağlıq Qarabağın azərbaycanlı icmasına qarşı kütləvi terror və qırğınlar həyata keçirilməsindən, Dağlıq Qarabağ probleminin əsl mahiyyətindən ətraflı bəhs edib.

Xocalı soyqırımı haqqında danışan Əli Həsənov bildirib ki, bu qətliamı törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıdaraq suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarını zorla ələ keçirmək idi. Ermənistan Xocalı faciəsini törətdikdən sonra Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirdi, Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq daha 7 rayonu işğal etdi, bir milyona yaxın azərbaycanlını qaçqın və məcburi köçkünə çevirdi.

Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycan dövləti və şəxsən Prezident İlham Əliyev Xocalı soyqırımının dünyada tanıdılması, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması və təcavüzkarın ifşa olunması üçün bütün zəruri addımları atıb, bu istiqamətdə irəli sürülən ictimai təşəbbüsləri dəstəkləyib. Daha sonra Əli Həsənov son illər geniş vüsət almış "Xocalıya ədalət!" beynəlxalq kampaniyasından bəhs edib, ayrı-ayrı ölkələrin dövlət qurumlarını və ictimaiyyətini, beynəlxalq təşkilatları bu faciəyə adekvat qiymət verməyə çağırıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair beynəlxalq səviyyədə qəbul edilmiş qətnamələrdən danışan Əli Həsənov Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının bu qətnamələrdə öz təsbitini tapdığını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Hazırda Ermənistan bütün beynəlxalq hüquq normalarını pozaraq işğalçılıq siyasətini davam etdirir. Bununla yanaşı, dünyadakı erməni diasporu və lobbisi mütəmadi olaraq 1915-ci il hadisələrini gündəmə gətirərək Azərbaycan torpaqlarının işğalını, Dağlıq Qarabağ problemini və Xocalı soyqırımını, evindən qovulmuş bir milyona yaxın azərbaycanlının böyük faciəsini unutdurmaq və diqqətdən kənarda saxlamaq istəyir. Ona görə də bu günlərdə həm Azərbaycanın, həm də qardaş Türkiyənin vətəndaş cəmiyyəti təşkilatları, diaspor qurumları və ziyalıları öz ölkələrinin rəsmi dövlət orqanlarına hər cür ictimai dəstək verərək Xocalı soyqırımı və Azərbaycan torpaqlarının işğalına dair digər faktları dünya ictimaiyyətinin diqqətinə çatdırmalı, baş verənlərin obyektiv qavranılmasına və adekvat hüquqi-siyasi qiymətinin almasına çalışmalıdırlar. Azərbaycan və türk diaspor təşkilatları öz çevikliyini və mütəşəkkilliyini artırmalı, əlaqəli şəkildə fəaliyyət göstərməlidirlər.

Daha sonra çıxış edən Buxarest Dövlət Universitetinin professoru, Rumıniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Dumitru Balan Azərbaycan xalqının uzaq və yaxın keçmişdə öz dövlətinin qurulması və müstəqilliyinin qorunması uğrunda böyük əziyyətlər çəkdiyini deyib. Bildirib ki, Azərbaycanın Cənubi Qafqazın ən zəngin ölkələrindən biri olması, regiondakı strateji əhəmiyyəti bu çətinliklərin əsas səbəbləridir. Professor Azərbaycanın hər zaman böyük imperiyaların diqqət mərkəzində olduğunu vurğulayıb. Ölkəmizin müstəqillik tarixindən danışan D.Balan Xocalı soyqırımının yalnız Xocalı şəhərinin günahsız sakinlərinə qarşı deyil, həm də bütünlüklə bəşəriyyətə, bütün sivilizasiyalara və beynəlxalq aləmə qarşı törədilən soyqırımı olduğunu vurğulayıb.

Sonda çıxış edən "Geopolitika" jurnalının baş redaktoru Vasile Simileanu Azərbaycan xalqına başsağlığı verərək bildirib ki, rəhbərlik etdiyi "Topform" nəşriyyatı tərəfindən Dağlıq Qarabağ münaqişəsinin, Xocalı soyqırımının həqiqətlərini təbliğ edən bir sıra kitablar çap edilib. O cümlədən Azərbaycan xalqının müstəqillik tarixi, İrəvan xanlığı, Rumıniya və Azərbaycan arasında münasibətlərə dair kitablar da işıq üzü görüb. Bütün bu nəşrlər rumın cəmiyyətində dost, qardaş Azərbaycan xalqının tarixini dərindən başa düşməyə fürsət yaradıb. Xocalı faciəsinə toxunan V.Simileanu bəşəriyyətə qarşı törədilən bu cinayətin təşkilatçılarının tezliklə cəzalarını alacaqlarına əmin olduğunu və Cənubi Qafqazı hər zaman sülh içində görmək istədiyini vurğulayıb.

Tədbirdə Heydər Əliyev Fondunun hazırladığı "Xocalı soyqırımı" adlı film nümayiş olunub.

Xocalı soyqırımı qurbanlarının əziz xatirəsinə ehsan süfrəsi açılıb.

Xocalıda törədilən vəhşilikləri əks etdirən fotoşəkillər və xarici ölkələrin nüfuzlu nəşrlərində bu faciə barədə dərc edilmiş materiallar, rumın, ingilis və digər dillərdə broşürlər, kitablar, CD-lər, məqalələr tədbir iştirakçılarının marağına səbəb olub.

AZƏRTAC

# Çinin 2 şirkəti Xəzərin dibi ilə fiber-optik kabel magistralının tikintisinə cəlb oluna bilər

**Çinin "Huawei" və "China Telekom" şirkətləri Xəzərin dibi ilə Azərbaycandan müxtəlif istiqamətlərdə fiber-optik kabel magistralının tikintisinə cəlb oluna bilər.**

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir Ramin Quluzadə Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 7-ci iclasında iştirak etmək məqsədilə Çinin paytaxtı Pekində səfərdədir. Səfər çərçivəsində adıçəkilən komissiyanın həmsədri, Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayevlə birgə "Huawei" şirkətinin rəhbərliyi ilə görüş keçirilib. Görüş çərçivəsində "Huawei" şirkətinin istehsalı olan və müxtəlif sahələri əhatə edən yeni texnoloji həllərin təqdimatı keçirilib, şirkətin Azərbaycanda mövcud fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.



Bununla yanaşı, şirkətin Xəzər dənizinin dibi ilə ölkəmizdən Qazaxıstan və Türkmənistan istiqamətlərində fiber-optik kabel magistralının tikintisində mümkün iştirakı da müzakirə edilib. Gələcəkdə magistral vasitəsilə Türkmənistan üzərindən Əfqanıstanın da internetə çıxışı təmin edilə bilər.

Səfər çərçivəsində Ramin Quluzadə "China Telecom" şirkətinin rəhbəri Yanq Jie ilə də görüşüb. Görüş zamanı sözügedən şirkətlə beynəlxalq telekommunikasiya sahəsində mövcud əlaqələr və gələcək əməkdaşlıq perspektivləri ətrafında müzakirələr aparılıb. Bu xüsusda, "Trans-Avrasiya Super İnformasiya Magistralı" (TASİM) layihəsinin qısa müddət ərzində icrası istiqamətində mümkün addımların atılmasının vacibliyi vurğulanıb.

Görüş zamanı layihə çərçivəsində Qazaxıstan istiqamətində Xəzəraltı fiber-optik kabel magistralının çəkilməsinin texniki həlli yolları, layihə üzrə iqtisadi əsaslandırmanın hazırlanması, o cümlədən Çin tərəfinin bu magistraldan gələcək istifadəsi üzrə tələbatların öyrənilməsinə dair məsələlər müzakirə edilib. Eyni zamanda, şirkətin Azərbaycanla Türkmənistan arasında da dənizaltı fiber-optik kabel magistralının tikintisi ilə bağlı əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb.

Bu sahədə daha detallı texniki və iqtisadi məsləhətləşmələrin aparılması məqsədilə "Huawei" və "China Telekom" şirkətlərinin rəhbərliyi Azərbaycana dəvət olunub.

Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 7-ci iclası bu gün keçiriləcək.

AZƏRTAC

*Şahmar MÖVSÜMOV:*

# Ötən il Neft Fondunun mənfəət nefti və qazın satışı üzrə gəlirləri 9,8 milyard dollar olub

## *Dövlət Neft Fondunun 2018-ci il büdcəsində 6,2 milyard manat profisit yaranıb, fondun aktivləri 38,5 milyard dollara çatıb*



**"Neftin qiymətinin nəzərdə tutulandan daha yüksək olması nəticəsində Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) 2018-ci il büdcəsində 6,2 milyard manat profisit yaranıb. Fondun aktivləri təqribən 7,6 faiz artaraq 38,5 milyard dollara yüksəlib. Keçən il ARDNF-in daşınmaz əmlak portfelində müştərək və fond investisiya strategiyaları üzrə ümumilikdə 5 yeni yatırım edilib, özəl səhm investisiyaları çərçivəsində isə 5 yeni fonda investisiyalarla bağlı müqavilələr imzalanıb. Fondun mənfəət nefti və qazın satışı ilə bağlı ötənilki gəlirləri 9,8 milyard dollar olub. Bu ilin yanvarında "Azəri-Çıraq-Günəşli" üzrə yeni saziş çərçivəsində Neft Fonduna 450 milyon dollarlıq ikinci bonus ödənişi həyata keçirilib. Cari ildə dövlət büdcəsinin gəlirlərinin 49 faizinin Dövlət Neft Fondundan edilən transfertlər hesabına formalaşacağı gözlənilir. Keçən il Neft Fondunun daşınmaz əmlak portfeli üzrə gəlirliliyi 9,9 faiz təşkil edib və bu il bir sıra inkişaf etmiş ölkələrdə daşınmaz əmlak obyektlərinə investisiyalar nəzərdə tutulur", - bu faktları AZƏRTAC-a eksklüziv müsahibəsində Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov səsləndirib.**

**Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov ARDNF-in ötənilki nailiyyətləri, investisiya siyasəti və cari ildən gözləntiləri barədə AZƏRTAC-ın müxbirinin suallarını cavablandırıb. Həmin müsahibəni təqdim edirik.**

**–Dövlət Neft Fondunun 2018-ci ildəki fəaliyyətinin nəticələri necə olub?**

–Ötən il ən mühüm məsələ ilin profisitlə başa çatdırılması olub. Belə ki, Neft Fondunun 2018-ci il büdcəsində gəlirlər 15,3 milyard manat, xərclər 11,5 milyard manat, profisitin 3,8 milyard manat nəzərdə tutulmasına baxmayaraq, xam neftin faktiki qiymətinin büdcədə nəzərdə tutulan 55 ABŞ dolları ilə müqayisədə daha yüksək olması nəticəsində ARDNF-in büdcəsində 6,2 milyard manat profisit yaranıb. Beləliklə, 2018-ci ilin əvvəlinə 35,8 milyard dollar səviyyəsində olan Dövlət Neft Fondunun aktivlərinin həcmi ilin sonuna təqribən 7,6 faiz artaraq 38,5 milyard dollara çatıb.

2018-ci ildə layihələrin maliyyələşdirilməsi istiqamətində Neft Fondu bir çox nailiyyətlərə imza atıb. 2001-ci ildən etibarən ARDNF bir çox strateji əhəmiyyətli layihələrin maliyyələşdirilməsində iştirak edir. Bunlardan dünyanın ən iri enerji layihələri sırasında mühüm yer tutan TANAP, "Şahdəniz 2", eləcə də Bakı-Tbilisi-Qars yeni dəmir yolu kimi layihələr uğurla icra edilib, Türkiyənin ən nüfuzlu layihəsi sırasına daxil olmuş "Star" neft emalı zavodu kompleksi ötən il Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

ARDNF-in maliyyələşdirdiyi bir sıra layihələrin, o cümlədən 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin icrası artıq başa çatmaq üzrədir. Belə ki, 2021-ci ildə xaricdə təhsil proqramı çərçivəsində təhsil alan son tələbənin məzun olması nəzərdə tutulur. Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində görülmüş işlər isə tamamlanıb, 2019-cu ildə bu layihə çərçivəsində son obyekt olaraq Şabran rayonu ərazisində yeni suvarılan torpaqların istifadəyə verilməsi obyektinin tikintisinin başa çatdırılması nəzərdə tutulur. Məcburi köçkünlərin sosial məişət və məskunlaşma məsələləri ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə gəldikdə, cari ildə Neft Fondu tərəfindən bu layihənin maliyyələşdirilməsi davam etdiriləcək ki, bu məqsədlə ARDNF-in 2019-cu il büdcəsində 200 milyon manat vəsait ayrılıb.

Vurğulamaq istərdim ki, 2018-ci il ərzində Dövlət Neft Fondu özünün uzunmüddətli investisiya strategiyasının icrasına davam edib. Bununla belə, 2018-ci ildə səhmlər, özəl səhmlər, daşınmaz əmlak və qızıl kimi aktivlər üzrə yeni investisiyalar həyata keçirilib.

Belə ki, daşınmaz əmlak portfelində müştərək və fond investisiya strategiyaları üzrə ümumilikdə beş yeni yatırım edilib. Əlavə olaraq, özəl səhm investisiyaları üzrə isə 2018-ci ildə 5 yeni fonda investisiyalar ilə bağlı müqavilələr imzalanıb.

**–Maliyyə Sabitliyi Şurasının üzvü kimi sizdən öyrənmək istərdik, ölkədə maliyyə sabitliyinin təmin edilməsi və fiskal dayanıqlılığın qorunması istiqamətində hansı işlər görülüb və görülən bu tədbirlər əhalinin sosial müdafiəsinin gücləndirilməsinə necə təsir edir?**

–Prezident İlham Əliyevin rəhbərliyi altında iqtisadiyyatın bütün sahələrində genişmiqyaslı islahatlar aparılır. Bu islahatlar son nəticə olaraq ölkənin iqtisadi inkişafının sürətlənməsinə və əhalinin maddi rifah halının yaxşılaşdırılmasına yönəldilib. Belə ki, son illər ərzində ölkədə maliyyə və bank sisteminin sağlamlaşdırılması, fiskal dayanıqlılığın gücləndirilməsi, institusional struktur islahatları istiqamətlərində mühüm qanunvericilik aktları və normativ sənədlər hazırlanaraq qəbul edilib. Eyni zamanda, son illərdə vergi və gömrük sistemlərində də dərin struktur islahatları aparılıb ki, bu islahatlar da ilk növbədə, ölkədə fiskal intizamın və maliyyə potensialının gücləndirilməsinə xidmət edir.

Yuxarıda qeyd edilən bütün bu tədbirlər sayəsində əhalinin maddi rifah halının və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinə imkan yaranıb. Minimum əməkhaqqının, pensiyaların, tələbələrin təqaüdlərinin artırılması bu sahədə həyata keçirilən əsas tədbirlərdən olub. Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi və sosial məsələlərə bağlı müşavirədə ölkədə aparılan iqtisadi islahatlar, şəffaflığa bağlı görülən işlərin müsbət nəticələri və bu nəticələrin, ilk növbədə, büdcə daxilolmalarının artmasına müsbət təsiri xüsusi vurğulanıb. Məhz bu uğurlu nəticələrə əsaslanaraq ölkə başçısı tərəfindən fevralın 25-26-də əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində çox mühüm sərəncamlar imzalanıb. Bu sənədlər sırasında Prezident İlham Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2019-cu il 25 fevral tarixli Sərəncamı xüsusi olaraq qeyd edilməlidir. Bu Sərəncam 600 minədək vətəndaşa yönələn sosial müavinətlərin və Azərbaycan Prezidentinin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması, habelə təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədi daşıyır. Qeyd olunan müavinət və təqaüdlər ilə bağlı artımlar üçün cari ildə əlavə olaraq 400 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Eyni zamanda, ölkə başçısının 2019-cu il 26 fevral tarixli digər Sərəncamı ilə məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılıb.

Ölkə başçısı tərəfindən imzalanmış bu fərman və sərəncamlar dövlətin ölkə vətəndaşlarına göstərdiyi qayğının bariz nümunəsidir. Prezident İlham Əliyevin müşavirədə qeyd etdiyi kimi Dövlət Neft Fondunun gəlirlərinin artması, ölkənin maliyyə vəziyyətinin yaxşılaşması bu cür sosialyönümlü tədbirlərin həyata keçirilməsinə, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, maddi rifah halının yaxşılaşdırılması istiqamətində mühüm və davamlı addımların atılmasına imkan yaradır.

**–2018-ci ildə Neft Fondunun mənfəət neftinin və qazın satışından əldə etdiyi gəlirlər, eləcə də neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı bonus ödənişləri nə qədər olub?**

–Bildiyiniz kimi, ARDNF-in 2018-ci il büdcəsində neftin bir barrelinin qiyməti 55 dollar səviyyəsində qəbul edilib. Lakin il ərzində neftin dünya bazarında satış qiymətinin büdcədə nəzərdə tutulandan yüksək olması ilə əlaqədar Dövlət Neft Fondunun neft və qaz gəlirləri büdcədə nəzərdə tutulana nisbətən çox olub. Ötən il ərzində ARDNF-in mənfəət nefti və qazın satışı ilə bağlı gəlirləri təxminən 9,8 milyard dollar təşkil edib. Bundan başqa "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" 2017-ci il 14 sentyabr tarixli Sazişə əsasən 2018-2025-ci illər ərzində ümumilikdə 3,6 milyard dollar ödənilməsi nəzərdə tutulur ki, bonus məbləğinin ilk hissəsinə aid 450 milyon dollar vəsait 2018-ci ildə ARDNF-ə daxil olub. Eyni zamanda nəzərinizə çatdırıram ki, bonusun ikinci hissəsi - 450 milyon dollar cari ilin yanvarında ödənilib.

**–2019-cu ildən gözləntiləriniz nələrdir?**

–ARDNF-in 2019-cu il üzrə büdcə layihəsi hazırlanarkən neftin bir barrelinin satış qiyməti dövlət büdcəsində olduğu kimi 60 dollara bərabər götürülüb. Proqnozlaşdırılan qiymət səviyyəsinə uyğun olaraq, cari ildə Neft Fondunun büdcə gəlirləri 15,5 milyard manat səviyyəsində nəzərdə tutulub. Fondun 2019-cu il üzrə proqnozlaşdırılan xərcləri 11,6 milyard manat təşkil edir ki, bunun 11,4 milyard manatını (98 faiz) dövlət büdcəsinə transfert, 200 milyon manatını (1,7 faiz) məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı tədbirlər, 30,9 milyon manatını (0,3 faiz) isə ARDNF-in idarə edilməsi ilə bağlı xərclər təşkil edir.

Dövlət büdcəsinin 2019-cu ildə ümumi gəlirlərinin 23,2 milyard manat səviyyəsində olacağı proqnozlaşdırılır ki, onun tərkibində neft sektorundan daxilolmaların 13,7 milyard manat təşkil edəcəyi gözlənilir. Beləliklə, dövlət büdcəsi gəlirlərinin 49 faizinin Neft Fondundan edilən transfertlər hesabına formalaşacağı proqnozlaşdırılır. Bununla yanaşı, ARDNF-in transfertlərinin dövlət büdcəsinin neft gəlirlərində payının təqribən 83 faiz təşkil edəcəyi gözlənilir.

**–2018-ci il səhm bazarları üçün bir qədər çətin il oldu. Mövcud vəziyyət bir sıra maliyyə qurumlarına öz mənfi təsirini göstərdi. Dövlət Neft Fonduna səhm bazarlarındakı vəziyyətin təsiri necə olub?**

–Məlum olduğu kimi, ötən il beynəlxalq səhm bazarlarında yaşanan yüksək qiymət dəyişkənliyi mühiti və bu əsnada yaranan enmə trendi bir çox uzunmüddətli institusional investorlar (o cümlədən, aparıcı suveren ehtiyat fondlarının əksəriyyəti) üçün də təsirsiz ötüşməyib. Belə ki, investisiya portfelinin əhəmiyyətli hissəsinin səhm aktivlərinin təşkil etdiyi bu investorlar gəlirliliklərində aşağı və ya mənfi nəticələr əldə ediblər. Misal üçün 2018-ci ildə Norveçin suveren fondu Dövlət Pensiya Fondunun gəlirliliyi -6,1 faiz, Alyaska və Yeni Zelandiyanın suveren fondlarının gəlirliliyi isə müvafiq olaraq -1,1 faiz və -2,18 faiz olub. Qlobal səhm bazarlarında mövcud olan bu vəziyyət əlbəttə ki, digər investorlar kimi ARDNF-in də 2018-ci il üzrə investisiya portfelinin lokal valyutada gəlirliliyinə təsir göstərib. Qeyd edilən dövr üzrə Neft Fonunun investisiya portfelinin lokal valyutada gəlirliliyi 0,35 faiz olub. 2018-ci il ərzində qlobal səviyyədə səhmlər üzrə qeydə alınmış mənfi gəlirlilik şəraitində ARDNF-in səhm altportfelinin fərdi gəlirliliyi -6,57 faiz təşkil edib (nəticədə, birjalarda alınıb-satılan səhm investisiyalarında yatırımlara başlanılan dövrdən ötən ilin sonuna qədər olan toplam gəlirlilik 67,65 faiz olub). Belə ki, ötən ilin ilk 9 ayında qlobal səhm bazarlarında müsbət nəticələr əldə olunsa da, sonuncu rübdə dünyanın əksər əsas iqtisadiyyatlarında qlobal iqtisadi artımın zəifləməsi barədə bədbin proqnozlar fonunda səhm bazarlarında mənfi gəlirlilik qeydə alınıb. Bununla yanaşı, beynəlxalq ticarət əlaqələrində və Brexit ətrafında yaranmış gərginlik, Çinin iqtisadi artım dinamikasının zəifləməsi, ABŞ-ın Federal Ehtiyat Sisteminin apardığı faiz dərəcəsi siyasəti barədə təşvişlərin artması, eləcə də Birləşmiş Ştatlarda yüksələn faiz dərəcələri fonunda şirkət gəlirləri ilə bağlı bədbin gözləntilər kimi amillər də sözügedən səhm bazarlarında aşağı gəlirliliyə öz mənfi təsirini göstərib.

Lakin daha əvvəllər də qeyd edildiyi kimi, ARDNF-in investisiya portfelində səhm, daşınmaz əmlak kimi aktivlərin də yer almasında əsas məqsəd uzunmüddətli dövrü əhatə edən qlobal investisiya portfelinin qurulmasıdır. Təbii ki, belə bir portfelin qurulması Dövlət Neft Fondunun əsas məqsədlərindən biri olan neft gəlirlərinin gələcək nəsillər üçün qorunub saxlanılması, habelə toplanan vəsaitlərin daimi gəlir mənbəyinə çevrilməsi istiqamətində olduqca mühüm bir addımdır. Səhmlər də investisiya aktivi olaraq bu portfel üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, şirkətlərdə sahiblik statusu verən, onların mənfəət artımını, eləcə də iqtisadi artım kimi önəmli komponentləri öz dəyərində əks etdirən səhm yatırımları uzunmüddətli dövr ərzində daha yüksək gəlirlilik vəd etməklə, investisiya portfelinin şaxələndirilməsində müstəsna rol oynayır. Əlbəttə, belə bir investisiya aktivinin portfeldə optimal həcmdə yer alması ARDNF-in vəsaitlərinin real dəyərinin qorunmasında, o cümlədən onların alıcılıq qabiliyyətinin saxlanılmasında böyük əhəmiyyət kəsb edir. Lakin bununla yanaşı, qeyd edilməlidir ki, burada səhm investisiyaları qısamüddətli dövr ərzində yüksək qiymət dəyişkənliyi ilə xarakterizə olunur ki, bu da öz növbəsində, müəyyən zaman kəsiklərində investisiya portfelinə əlavə volatillik gətirir.

**–ARDNF-in xarici ölkələrdəki daşınmaz əmlakları üzrə gəlirləri nə qədərdir? Gələn il bu sahədə yeni investisiyalar nəzərdə tutulurmu?**

–İlk öncə, qeyd etmək istərdim ki, 2012-ci ildən etibarən qüvvəyə minmiş yeni investisiya siyasətinə əsasən Neft Fondunun investisiya portfelinə daşınmaz əmlak da daxil olmaqla yeni aktivlər daxil edilməyə başlanılıb. Sözügedən strategiyanın həyata keçirilməsində əsas hədəf ARDNF-in investisiya portfelinin müxtəlif maliyyə alətləri üzrə şaxələndirilməsi və gəlirliliyinin artırılmasıdır.

Nəzərinizə çatdırıram ki, Dövlət Neft Fondunun daşınmaz əmlak portfeli üzrə gəlirliliyinin əsas komponentləri üzrə əldə olunmuş rəqəmlərə əsasən 2018-ci il ərzində də son illərdə adıçəkilən portfel üzrə müşahidə edilən müsbət gəlirlilik trendi davam edərək ötən il üzrə bu göstərici 9,9 faiz olub.

Daşınmaz əmlak bazarının ümumi vəziyyəti və bazarda cərəyan edən trendlər nəzərə alınaraq hər ilin sonunda ARDNF-in daşınmaz əmlaka investisiyaları ilə bağlı strategiyası yenilənərək təsdiqlənir. 2019-cu il üzrə olan müvafiq strategiyaya əsasən növbəti ildə Şimali Amerika, Avropa, Asiya və Sakit Okean hövzəsi regionlarında yerləşən bir sıra inkişaf etmiş ölkələrin müxtəlif tipli daşınmaz əmlak obyektlərinə birbaşa, müştərək və yaxud daşınmaz əmlak fondları vasitəsilə investisiyalar nəzərdə tutulur.

**–ARDNF 2018-ci ildə hansı həcmdə qızıl alıb, investisiya portfelində qızılın miqdarı və dəyəri nə qədərdir?**

–Dövlət Neft Fondunun investisiya portfelində 2017-ci ilin sonuna qızılın ümumi miqdarı 30 ton 174,9 kiloqram (970 145,5 troya unsiyası) təşkil edib. Ötən il ərzində isə əlavə olaraq dəyəri 816,96 milyon dollar təşkil edən 20 ton 778,4 kiloqram (668 040,7 troya unsiyası) qızıl alınıb ki, nəticədə ARDNF-in investisiya portfelinə daxil olan qızılın ümumi miqdarı keçən ilin sonuna 50 ton 953,3 kiloqram (1 638 186,3 troya unsiyası) və yaxud 2 milyard 93,09 milyon dollar təşkil edib.

**–Neft Fondunun 2019-cu il üzrə investisiya siyasətində investisiya portfelində qızıla investisiyaların artırılması məsələsi öz əksini tapıb. Bu sahədə planlarınız nədən ibarətdir?**

–Qızılın investisiya portfelinə daxil edilməsi ümumi portfel səviyyəsində qismən şaxələndirmənin və inflyasiyaya qarşı hedcinqin təmin edilməsi məqsədləri ilə yanaşı, başlıca olaraq ölkə iqtisadiyyatı səviyyəsində strateji hədəflərə xidmət etməkdir ki, son zamanlarda qlobal və regional miqyasda artan geosiyasi gərginlik fonunda, eləcə də qeyri-müəyyən maliyyə bazarları şəraitində bu tipli strateji investisiyaların əhəmiyyəti artmaqdadır. ARDNF-in 2019-cu il üzrə qəbul edilmiş İnvestisiya Siyasətinə əsasən fondun investisiya portfelində qızıla olan investisiyaların həcmi 5 faizdən 10 faizədək artırılıb. Həmçinin qeyd etmək istərdim ki, cari il ərzində Dövlət Neft Fondunun investisiya portfelinin həcmi və qızılın qiyməti kimi amillər nəzərə alınmaqla İnvestisiya Siyasəti ilə müəyyən edilən qızıl portfeli üzrə hədəf dəyəri çərçivəsində qızılın alınması planlaşdırılır.

**–Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya hasilat sənayesində şəffaflığı və hesabatların beynəlxalq standartlara uyğunluğunu təşkil edə bilirmi?**

–Bildiyiniz kimi, Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli "Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına əsasən yaradılıb. Komissiyanın başlıca məqsədi ölkəmizin hasilat sənayesində şəffaflığın və hesabatlılığın təmin edilməsidir, komissiya fəaliyyətini beynəlxalq şəffaflıq prinsiplərinə əsasən icra edir. Qısa zamanda komissiya ölkənin hasilat şirkətləri, vətəndaş cəmiyyəti və müxtəlif beynəlxalq təşkilatlarla məhsuldar əməkdaşlıq formalaşdırmağa nail oldu, komissiyanın bütün iclaslarında sözügedən maraqlı tərəflərin iştirakı hər zaman təmin edilir. Komissiyanın 2016-cı və 2017-ci illəri əhatə edən Hasilat Sənayesində Şəffaflıq üzrə iki ümumiləşdirilmiş hesabatı (HSŞ hesabatı) dərc olunub. Həmin hesabatlar beynəlxalq şəffaflıq prinsiplərini əsas tutaraq hazırlanır və ötən illərdə də bu sahədə beynəlxalq standartlara tam uyğun şəkildə dərc olunmuş hesabatlarla açıqlanmış məlumatlar eyni ilə HSŞ hesabatlarında öz əksini tapıb, bəzi hissələrdə daha təfərrüatlı şəkildə hesabata daxil edilib.

Xüsusi vurğulamaq istərdim ki, hesabatların hazırlanması prosesində bütün tərəflər, o cümlədən vətəndaş cəmiyyəti nümayəndələri HSŞ hesabatlarının hazırlanması üzrə maraqlı tərəflərdən ibarət İşçi Qrupun üzvləri olub və hesabatların tərtibatında birbaşa iştirak edərək öz töhfələrini veriblər. Bununla yanaşı, hesabat ilində əsas olan göstəriciləri daha geniş ictimaiyyətə çatdırmaq məqsədilə İcmal hesabatlar (HSŞ hesabatlarının qısa versiyası) da dərc olunur və paylanılır. Odur ki, qeyd olunmuş faktlar sözügedən fərmandan irəli gələn tapşırıqların icra edilməsinin və komissiyanın öz fəaliyyətinin uğurla həyata keçirilməsinin göstəricisidir. Bundan əlavə qeyd etmək istərdim ki, illər boyu əməkdaşlıq etdiyimiz beynəlxalq maliyyə institutları və digər qurumlar tərəfindən bu günə kimi Azərbaycan tərəfindən HSŞ üzrə görülmüş işlər alqışlanıb və ölkəmizin hasilat sənayesində şəffaflıq üzrə yoluna davam edərək beynəlxalq şəffaflıq standartlarına sadiq qalması yüksək qiymətləndirilib.

**–Bu il ARDNF üçün əlamətdar ildir, belə ki, fond 20 illiyini qeyd edir. Fəaliyyət göstərdiyi dövr ərzində Neft Fondunun qlobal miqyasda uğurları və nüfuzu barədə məlumat verərdiniz.**

–Fəaliyyətə başladığı gündən şəffaflıq və hesabatlılıq əsas prinsiplərindən biri olan ARDNF hazırda beynəlxalq səviyyədə tanınan, şəffaf fəaliyyəti ilə dünyanın bir çox nüfuzlu təşkilatları tərəfindən yüksək qiymətləndirilən bir qurumdur. 2007-ci ildə Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən ARDNF-ə BMT-nin "Dövlət xidmətində şəffaflığın, cavabdehliyin və məsuliyyətin artırılması" üzrə mükafatı təqdim edilib. Neft Fondu Şərqi Avropa və MDB ölkələrinin dövlət təşkilatları arasında sözügedən mükafata layiq görülən birinci dövlət qurumudur.

Bildiyiniz kimi, ARDNF Santyaqo Prinsipləri əsasında fikir və təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədilə əsası 2009-cu ildə qoyulan və tərkibində dünyanın əksər suveren fondlarını birləşdirən Suveren Fondların Beynəlxalq Forumunun (SFBF) aktiv üzvüdür, ARDNF-in bu forumda aktiv iştirakı onun digər suveren fondlarla əməkdaşlığının gücləndirilməsinə, müvafiq beynəlxalq təcrübənin bölüşdürülməsinə və bu fondlar arasında nüfuzunun artırılmasına mühüm təsir göstərir.

Qeyd etmək istərdim ki, SFBF-nin 2009-cu ildə dünyanın 20-dən çox ölkəsinin suveren fondlarının yüksək səviyyəli nümayəndələrinin iştirak etdiyi ilk illik görüşü Azərbaycan hökuməti və Dövlət Neft Fondunun təşkilatçılığı ilə Bakıda keçirilib.

Əlavə olaraq bildirmək istərdim ki, Suveren Fondların Beynəlxalq Forumunun Mərakeş şəhərində keçirilən 10-cu illik görüşündə SFBF-nin 5 nəfərdən ibarət idarə heyətinin yeni tərkibinə keçirilən seçkilərin nəticəsində ARDNF-in icraçı direktoru idarə heyətinə üzv seçilib. Eyni zamanda, tədbirdə SFBF-nin 2020-ci ildə 12-ci illik yığıncağının Dövlət Neft Fondunun təşkilatçılığı ilə Bakıda keçirilməsi qərara alınıb.

Yuxarıda deyilənlərə əlavə olaraq qeyd etmək istərdim ki, suveren fondların şəffaflıq və hesabatlılığının qiymətləndirilməsi sahəsində Beynəlxalq İqtisadiyyat üzrə Peterson İnstitutunun əməkdaşı Edvin Truman tərəfindən hazırlanmış, struktur, idarəetmə, şəffaflıq və hesabatlılıq, maliyyə bazarlarında fəaliyyət kateqoriyalarından ibarət olan suveren fondların qiymətləndirmə cədvəlində ARDNF 60 suveren fond arasında yüksək göstərici ilə 92 balla 4-cü yerdə qərarlaşıb.

Suveren fondların şəffaflıq səviyyəsini ölçmək və qeyri-şəffaf fəaliyyətlərini müəyyən etməklə şəffaflıq, hesabatlılığın artırılmasına dəstək vermək məqsədilə Suveren fondlar İnstitutunun əməkdaşları Karl Linaburq və Maykl Maduel tərəfindən tərtib edilən "Linaburq-Maduel indeksi"ndə 48 suveren fond arasında Dövlət Neft Fondu ən yüksək balı toplayan və birinci yerdə qərarlaşan 12 fonddan biridir.

Onu da qeyd etmək lazımdır ki, ARDNF cari ildə Suveren Fondlar İnstitutu tərəfindən tərtib edilən, qurumların fəaliyyətlərində tətbiq etdiyi innovasiyalar, xüsusi proqramlar, maliyyələşdirmə mexanizmləri, gəlirlilik göstəriciləri, mövcud şərait və həyata keçirilmiş təşəbbüslər kimi kriteriyalar nəzərə alınmaqla tərtib edilən renkinqdə dövlət vəsaitlərinin idarə edilməsi üzrə dünyanın ən nüfuzlu 100 investoru siyahısında 10-cu yerdə qərarlaşıb. Nəzərinizə çatdırım ki, siyahıya mövcud şəraitdə vəsaitlərin idarə edilməsində fərqlənən dünyanın böyük suveren fondları, pensiya fondları, ianə fondları və sair təşkilatlar arasından seçilmiş 100 ən nüfuzlu investor daxil edilib. Düşünürəm ki, qeyd edilən bütün bu göstəricilər ARDNF-in beynəlxalq arenada yeri və nüfuzunu göstərən mühüm amillərdir.

**–20 illiyini qeyd edən Dövlət Neft Fondu tərəfindən yubileyi münasibətilə hansı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur?**

–Qeyd etdiyiniz kimi, bu il ARDNF-in yaradılmasının 20-ci ili tamam olur. Yubiley ilinin qeyd edilməsi məqsədilə bir sıra tədbirlər nəzərdə tutulub. Bu tədbirlərdən biri Azərbaycanda "İmpact İnvesting" ("Müsbət təsir gücünə malik investisiyalar") mövzusuna həsr olunmuş beynəlxalq konfransın təşkil edilməsidir. Son 10 ildə institusional investorlar arasında bu kimi investisiyalara olan maraq yüksək sürətlə artır. Bu da onunla əlaqədardır ki, bu cür investisiyalar institusional investorlar üçün idarə edilə bilən risklərlə yüksək gəlirlilik qazanmaqla yanaşı, bu investisiyalar vasitəsilə sosial və ətraf mühitə müsbət təsiretmə imkanının mövcudluğudur. Qeyd edilən konfransda bu cür investisiyalar sahəsində mövcud trendlər, bu sahədə gələcək planlar, mövcud bazarlar və maliyyə alətləri, müsbət təsirli investisiyaların institusional investorların investisiya strategiyalarında tətbiqi təcrübələri, bu kimi investisiyaların ölçülməsi və hesabatlılığı məsələlərinin müzakirəsi planlaşdırılır. Tədbirdə suveren və pensiya fondları kimi institusional investorların, beynəlxalq maliyyə təşkilatlarının, beynəlxalq ekspertlərin iştirakı nəzərdə tutulur.

Bu mühüm tədbirlə yanaşı, tələbələr üçün "Stock Pitch" ("Uğurlu səhm seçimi") adlı müsabiqənin, jurnalistlər arasında analitik yazı müsabiqəsinin təşkili də nəzərdə tutulur.

Eyni zamanda, Dövlət Neft Fondunun 20 illik fəaliyyətini əks etdirən filmin hazırlanması da tədbirlər planın tərkib hissəsidir.

**–Maraqlı müsahibə üçün təşəkkür edirik.**

AZƏRTAC

# Mərkəzi Bank nağdsız ödənişlərin inkişafı ilə bağlı keçirdiyi müsabiqənin qaliblərini mükafatlandırıb

**Azərbaycan Mərkəzi Bankı (AMB) Azərbaycan Banklar Assosiasiyası ilə birlikdə nağdsız ödənişlərin inkişaf etdirilməsi, innovativ ödənişlərin tətbiqi, elektron bankçılığın və elektron ticarətin genişləndirilməsi istiqamətində müxtəlif nominasiyalar üzrə müsabiqə nəticələrini elan edib və qalib bankları mükafatlandırıb.**

Bankdan AZƏRTAC-a bildirilib ki, tədbirdə Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyev ölkədə nağdsız ödənişlərin inkişafının AMB-nin fəaliyyətinin ən mühüm prioritetlərindən biri olduğunu deyib. Bildirib ki, bu istiqamətlərdə Azərbaycan Banklar Assosiasiyası, Maliyyə Bazarlarına Nəzarət Palatası, aidiyyəti dövlət qurumları, bank sektoru ilə birgə davamlı tədbirlər həyata keçirilir, layihələr reallaşdırılır.

A.Quliyev qeyd edib ki, rəqəmsal ödənişlərin genişləndirilməsi istiqamətində Mərkəzi Bankın bank sektoru ilə həyata keçirdiyi layihələr, apardığı davamlı islahatlar statistik məlumatlarda da öz təsdiqini tapır. Belə ki, 2018-ci ildə banklararası ödəniş sistemləri vasitəsilə aparılmış əməliyyatların həcmi ötən ilə nəzərən 31 faiz artaraq 274 milyard manat (ÜDM-in 3,4 misli), kart dövriyyəsində nağdsız ödənişlərin həcmi isə 17 faiz təşkil edib. 5 il əvvəl bu göstərici 6 faiz olub. Elektron bankçılıq xidmətləri vasitəsilə aparılan əməliyyatların həcmi 18,7 dəfə artaraq 36,4 milyard manat, əməliyyatların sayı isə 7 dəfə artaraq 10,4 milyon ədəd təşkil edib: "Qeyd olunan bu göstəricilər onu deməyə əsas verir ki, ölkədə nağdsız ödənişlərin inkişafı, əhalinin maliyyə savadlılığının artırılması, ictimaiyyətdə nağdsız ödəniş vərdişlərinin formalaşdırılması istiqamətində görülən işlər öz müsbət nəticələrini verməkdədir".

O, həmçinin rəqəmsal iqtisadiyyat quruculuğuna mühüm siyasi dəstək verən Prezident İlham Əliyevin 2018-ci ilin sentyabr ayında imzaladığı "2018-2020-ci illərdə rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nı diqqətə çatdıraraq qarşıya qoyulmuş yeni hədəflər və Mərkəzi Bank tərəfindən həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.



Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev deyib: "Qlobal trendlər onu göstərir ki, dünyada bankçılıq fəaliyyətində rəqəmsallaşma və nağdsız iqtisadiyyat quruculuğu istiqamətində çox sürətli proseslər gedir. Nağdsız iqtisadiyyatın inkişafı bank-maliyyə sektorunun dayanıqlığı və onun resurs bazasının gücləndirilməsi deməkdir. Bu da öz növbəsində, xərcləri azaltmaqla banklar tərəfindən göstərilən xidmətlərin əlçatanlığını artırır, onların investisiya imkanlarını genişləndirir və iqtisadiyyata kredit qoyuluşlarının artımını sürətləndirir".

"Məlumdur ki, bu istiqamətdə ölkəmizdə də genişmiqyaslı işlər aparılır. Dövlət Proqramı ölkənin nağdsız iqtisadiyyata transformasiyasının yeni və daha sürətli mərhələsinin başlanğıcını qoyub. Yüksək səviyyədə hazırlanmış olan bu Dövlət Proqramı ölkədə rəqəmsal ödənişlərin institusional mühitinin təkmilləşdirilməsi, bank sisteminin canlandırılması, sağlamlaşdırılması, rəqəmsal ekosistemin formalaşdırılması, eləcə də bu sahədə maarifləndirmə və təbliğat işlərinin gücləndirilməsi istiqamətləri üzrə çox geniş əhatəli, çoxsaylı prioritetləri özündə birləşdirir. Dövlət Proqramının həyata keçirilməsində Azərbaycan Banklar Assosiasiyasına da bir sıra tədbirlərin icrasında iştirak tövsiyə edilib ki, bu tədbirlərin reallaşdırılması üçün bütün zəruri tədbirlər həyata keçiriləcək", - deyə Z.Nuriyev qeyd edib.

Tədbirin sonunda 2018-ci ildə Mərkəzi Bank tərəfindən elan edilmiş 5 nominasiya üzrə qalib banklar mükafatlandırılıb. "POS-terminallarda nağdsız ödənişlər üzrə lider bank" nominasiyası üzrə "Premium Bank" ASC, "Paşa Bank" ASC və "AccessBank" QSC, "Elektron bankçılıq xidmətləri üzrə lider bank" nominasiyası üzrə "Azərbaycan Beynəlxalq Bankı" ASC, "Unibank" KB ASC, "Kapital Bank" ASC, "Elektron ticarətin inkişafında lider bank" nominasiyası üzrə "AGBank" ASC, "Unibank" KB ASC, "Expressbank" ASC, "Təmassız ödəniş kartları üzrə lider bank" nominasiyası üzrə "Expressbank" ASC, "Naxçıvanbank" ASC, "Paşa Bank" ASC, "Təmassız POS-terminal infrastrukturu üzrə lider bank" nominasiyası üzrə "Paşa Bank" ASC, "Expressbank" ASC və "AtaBank" ASC qalib olub.

Mərkəzi Bank Strateji Yol Xəritəsi və Dövlət Proqramı ilə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Maliyyə Bazarlarına Nəzarət Palatası, Azərbaycan Banklar Assosiasiyası və banklarla birgə rəqəmsal ödənişlərin genişləndirilməsi istiqamətində əlaqəli fəaliyyətini davam etdirəcək.

AZƏRTAC

# Gürcüstan Prezidenti Salome Zurabişvilinin Azərbaycana rəsmi səfəri

## Zaqatala Beynəlxalq Hava Limanında qarşılanma



**Gürcüstan Prezidenti Salome Zurabişvili Azərbaycana rəsmi səfəri çərçivəsində fevralın 28-də Qax rayonuna səfər edib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Gürcüstan Prezidentini Zaqatala Beynəlxalq Hava Limanında Azərbaycanın Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Azər Hüseyn, ölkəmizin Gürcüstandakı səfiri Dursun Həsənov, Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə və digər rəsmi şəxslər qarşılayıblar.

Sonra ali qonaq və onu müşayiət edən nümayəndə heyəti Qax rayonuna yola düşüb.

**AZƏRTAC**

## Gürcüstan Prezidenti Qax rayonunun Qaxingiloy kənd tam orta məktəbi ilə tanış olub





**Gürcüstan Prezidenti xanım Salome Zurabişvili fevralın 28-də Qax rayonunun Qaxingiloy kənd tam orta məktəbi ilə tanış olub.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Prezident Salome Zurabişvili məktəbin sinif otaqlarını gəzdi, müəllim və şagirdlərlə söhbət etdi.

Gürcüstan dövlətinin başçısının diqqətinə çatdırıldı ki, Qaxingiloy kənd tam orta məktəbində 163 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 34 müəllim məşğul olur. Ötən il məktəbi bitirən 8 məzundan 5-i ali məktəbə daxil olub.

Məktəbin şagirdləri Azərbaycan və gürcü dillərində şeirlər söylədilər.

Bildirildi ki, respublikanın hər yerində olduğu kimi, Qaxda da milli azlıqların övladlarının hərtərəfli təhsil almaları, onların bilikli, savadlı yetişmələri üçün bütün zəruri addımlar atılır.

Gürcüstan Prezidentinə məlumat verildi ki, Qax rayonunda 8 minə yaxın gürcü yaşayır. Gürcülərin yaşadıqları kəndlərdə 6 ümumtəhsil məktəbi, həmçinin Qax şəhərindəki məktəb-liseydə gürcü bölməsi, 6 məktəbəqədər tərbiyə müəssisəsi, 2 mədəniyyət evi, 1 folklor klubu, 2 kitabxana filialı, 1 sahə xəstəxanası, 1 həkim və 1 tibb məntəqəsi, habelə Əlibəyli kəndində Qax Dövlət Gürcü Dram Teatrı fəaliyyət göstərir.

Məktəblə tanış olan Gürcüstanın dövlət başçısı təhsil ocağının müəllim və şagirdlərinə uğurlar arzuladı.

**AZƏRTAC**

## "Müqəddəs Georgi" kilsəsini ziyarət

**Gürcüstan Prezidenti Salome Zurabişvili fevralın 28-də Qax rayonunun Qaxingiloy kəndində yerləşən "Müqəddəs Georgi" kilsəsini ziyarət edib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, ali qonağa XIX əsrin sonlarında inşa edilmiş bu ibadətgahda dini ayinlərin icrası üçün hər cür şəraitin yaradıldığı barədə məlumat verildi. Bildirildi ki, bu kilsə 1888-ci ildə xristian din əzabkeşi Müqəddəs Georginin şərəfinə könüllü ianələr və Qafqazda Xristianlığın Bərpası İdarəsinin maliyyəsi ilə tikilib. Kilsə yerli əhəmiyyətli tarixi abidə kimi dövlət tərəfindən qorunur.



Prezident Salome Zurabişvili kilsədə şam yandırdı. Burada dini ayin icra olundu.

Ali qonağın diqqətinə çatdırıldı ki, Azərbaycanın digər rayonları kimi, Qaxda da milli azlıqların adət-ənənələrinə həmişə hörmətlə yanaşılır. Qaxda yaşayan bütün milli azlıqlara dövlət tərəfindən daim xüsusi qayğı göstərilir. Bu fakt bir daha ölkəmizin hər yerində dini tolerantlığın yüksək səviyyədə olduğunu təsdiqləyir. Təsadüfi deyil ki, bu gün Azərbaycanın multikulturalizm modeli bütün dünyada öyrənilir və tətbiq edilir. Dövlətimiz tərəfindən başqa dinlərin abidələrinin qorunması, onların bərpası ölkəmizdəki multikultural siyasətin tərkib hissəsidir.

**AZƏRTAC**

## Qax şəhərinin qədim "İçəribazar" tarix-mədəniyyət kompleksi ilə tanışlıq





**Gürcüstan Prezidenti Salome Zurabişvili fevralın 28-də Qax şəhərinin qədim tarixi hissəsi - "İçəribazar" tarix-mədəniyyət kompleksi ilə tanış olub.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Prezidentə tarix-mədəniyyət kompleksi barədə ətraflı məlumat verildi. Bildirildi ki, Qaxda XVI əsrdən mövcud olan "İçəribazar" qala qapıları və qala divarları maddi-mədəniyyət abidəsinin yenidən qurulması ölkəmizdə tarixi-mədəni irsin qorunması istiqamətində həyata keçirilən kompleks tədbirlərin əyani sübutudur. Aparılan tikinti və yenidənqurma işlərindən sonra bu kompleks müasir və füsunkar görkəm alıb. Ərazidə əsrlərdən bəri qorunub saxlanılan maddi-mədəniyyət nümunələri müasir Qax şəhərinin bir hissəsi olmaqla yanaşı, həm də onun tarixinə verilən dəyəri nümayiş etdirir. Küçə boyunca qədimliyi özündə ehtiva edən qala divarları, təbii daşlar turistlərin diqqətini daha çox çəkir. Milli memarlıq üslubunda çapma çay daşı və qırmızı kərpiclə nəfis şəkildə işlənilən, dekorativ suvaq vurulan küçə divarları da insanda xoş ovqat yaradır. Qalanın giriş və çıxış qapıları ölkəmizin memarlıq ənənələrinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Mərkəzin ərazisindəki açıq səma altında mükəmməl layihə əsasında yaradılan 300 yerlik yay teatrı, sənətkarlıq emalatxanaları Gürcüstan Prezidentinin marağına səbəb oldu. Burada tətbiqi sənət nümunələri, xalçaçı, toxucu, ağacoyma sənətkarlıq emalatxanaları, Şərq şirniyyatı dükanı, təndirxana fəaliyyət göstərir.

Gürcüstan Prezidentinə məlumat verildi ki, görkəmli bəstəkar, ictimai xadim Müslüm Maqomayevin atası usta Məhəmmədin dəmirçi emalatxanası 1880-ci illərdə burada yerləşib.

**AZƏRTAC**

## Qaxda gürcü icması ilə görüş

**Fevralın 28-də Qax rayonuna səfəri çərçivəsində Gürcüstan Prezidenti Salome Zurabişvili "El Resort" otelinin Konfrans Mərkəzində rayonun gürcü icması ilə görüşüb.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Gürcüstanın dövlət başçısı ölkəmizə, o cümlədən Qax rayonuna səfərinin zəngin təəssüratlarından danışdı, səfərinin çox uğurlu olduğunu bildirdi. Azərbaycan Prezidenti ilə görüşdə çox vacib məsələlərin müzakirə olunduğunu deyən Salome Zurabişvili səmimi qarşılandıqlarını məmnunluqla vurğuladı.

O, səfərinin ölkələrimiz və xalqlarımız arasındakı münasibətlərin inkişafına daha da təkan verəcəyini qeyd etdi. Azərbaycanın Gürcüstan üçün strateji tərəfdaş və dost ölkə olduğunu deyən Salome Zurabişvili bildirdi ki, birgə həyata keçirilən mühüm layihələr xalqlarımızın rifahına xidmət edir.



"Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar öz milli identikliyini qoruyub saxlayıblar", - deyən Salome Zurabişvili ölkəmizdə gürcü mədəniyyətinə göstərilən diqqəti də məmnunluqla vurğuladı.

Görüşdən sonra ali qonağa "El Resort" otelində yaradılan müasir şərait barədə məlumat verildi. Bildirildi ki, geniş turizm potensialına malik olan Qax rayonunda son illər turizm infrastrukturunun yaradılması istiqamətində dövlət səviyyəsində davamlı iş aparılır, yüksək standartlara uyğun yeni otellər, istirahət mərkəzləri inşa edilir. 2011-ci ildə istifadəyə verilən "El Resort" oteli də belə turizm obyektlərindən biridir.

* * *

Fevralın 28-də Gürcüstan Prezidentinin Azərbaycana rəsmi səfəri başa çatdı. Zaqatala Beynəlxalq Hava Limanından Gürcüstanın dövlət başçısını rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

# İstedadlı alim, səmimi və xeyirxah insan

**Əsgər Adil oğlu Rəsulov 1954-cü ilin mart ayının 3-də Naxçıvanda anadan olmuşdur. Naxçıvan şəhər orta-internat məktəbini bitirdikdən sonra fəhlə kimi əmək fəaliyyətinə başlamışdır. Uşaqlıq və təhsil illəri çətin maddi sıxıntılarla keçən Əsgər tələbə ikən gecə növbəsində gəmidə matros olaraq çalışmışdır.**



1976-cı ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirən Əsgər Rəsulov 1976-1979-cu illərdə və 1989-1995-ci illərdə Türkiyə Respublikasında xidməti ezamiyyətdə olmuşdur. 1980-ci ildən indiyə kimi məzunu olduğu universitetdə elmi-pedaqoji fəaliyyətlə məşğul olan Əsgər Rəsulov filologiya elmləri doktoru, professordur. O, eyni zamanda, Milli Arxiv İdarəsinin rəhbəri vəzifəsində fəaliyyət göstərir.

Əsgər Rəsulov dəyərli monoqrafik elmi-tədqiqat əsərlərinin, çoxsaylı dərs vəsaiti və proqramlarının, ölkəmizdə və xaricdə çap olunmuş 50-dən artıq elmi məqalənin, televiziya pyeslərinin, çoxsaylı oçerk və hekayələrin müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Əsgər müəllimin elmi-monoqrafik tədqiqatları içərisində onun 2004-cü ildə nəşr edilmiş "Türk sənədli-bədii nəşri" adlı monumental əsərinin xüsusi yeri vardır. Bu monoqrafiya təkcə Azərbaycan Şərqşünaslığının deyil, həm də bütövlükdə şərqşünaslıq elminin uğuru hesab edilə bilər. İstər şərqşünaslıq mərkəzlərində, istərsə də Türkiyənin özündə ciddi elmi-nəzəri bazaya istinad edən və geniş bir dövrü əhatə edən zəngin ədəbi materiala əsaslanan ikinci bir tədqiqat əsərinə rast gəlmirik. Əsərdə Azərbaycan, türk, rus və Avropa dillərində olan 537 adda elmi, bədii, publisistik ədəbiyyatdan istifadə edilmişdir ki, bu da mövzunun elmi-nəzəri təhlilinin bütövlüyünü, monumentallığını təmin etmişdir.

Monoqrafiyada mövzunun elmi şərhi, müəllif konsepsiyası, mövzunun tarixi inkişaf mərhələləri, dinamikası və müəllifin elmi nəticələri daha aydın görünsün deyə Əsgər müəllim haqlı olaraq "Müasir türk ədəbiyyatşünaslığı və sənədli-bədii nəşri", "Türk sənədli-bədii nəşrinin nəzəri-estetik məsələləri", "Türk sənədli-bədii nəşrinin qaynaqları və ilkin janrları (XV-XIX əsrlər)", "Türk sənədli-bədii nəşrinin inkişafında yeni mərhələ (XIX əsrin sonu, XX əsrin əvvəlləri), "Cümhuriyyət dövründə sənədli-bədii nəşr" və "Müasir türk sənədli-bədii nəşri" adlı bölmələrdə mövzunun öyrənilməsinin inkişaf dinamikasını və bunlarla paralel monoqrafiya müəllifinin özünün elmi nəticələrini nəzəri-estetik planda, aydın elmi üslubda, məntiqi ardıcıllıqla oxucuya təqdim etmişdir. Tədqiqatın nəticələri obyektiv, elmi səciyyəyə malikdir. İstər ədəbiyyat nəzəriyyəsi baxımından, istərsə də ədəbi-bədii yaradıcılığın təcrübəsi və onun müasir praktiki əhəmiyyəti baxımından bütövlükdə ədəbiyyatşünaslığın uğuru hesab edilə bilər.

Müəllifin fikrincə, türk sənədli ədəbiyyatının təşəkkülü və təkamülü tarixinin janr və formalarının keçdiyi inkişaf yolunun, nəzəri-estetik və sənətkarlıq məsələlərinin tədqiqi, elmi-təhlili göstərir ki, bu ədəbiyyat çox geniş bir yelpazəni-klassik dövrün (Divan ədəbiyyatının) sənədli nəsrini, dövri mətbuatın ortaya çıxışına qədərki kitab publisistikasını, XIX əsrin ikinci yarısının maarifçi-demokratik nəsrini, XX əsrin birinci rübünün mülkiyyətçi - türkçü xitabət sənətini, Cümhuriyyət dövrünün zəngin bədii publisistikasını əhatə edir. Sənədli ədəbiyyatın klassik Osmanlı və müasir Türkiyə söz sənətində vaqinamə, səyahətnamə, səfərnamə, risalə, məktub, oçerk, reportaj, memuar, gündəlik, bədii nitq kimi janrları, yol-səyahət qeydləri, səfər təəssüratları, portret, müsahibə, açıq məktub, avtobioqrafiya kimi formaları vardır... "Sənədli-bədii nəsr mahiyyət etibarilə realist yaradıcılıq tipidir, buna görə də bu əsərlərdə yazıçının vətəndaşlıq mövqeyi, ictimai həyatdakı yeri və dünyagörüşü mühüm əhəmiyyət kəsb edir". Göründüyü kimi, tədqiqata cəlb edilən ədəbi materialın sosial məzmunu, ədəbi-estetik qayəsi, sənətkarlıq xüsusiyyətləri, əsər müəlliflərinin ictimai mövqeyi, sosial-siyasi məqsədi tədqiqatçının diqqət mərkəzində olmuş, ədəbi material bütün cəhətlərilə həm ideya-məzmun, həm də sənətkarlıq baxımından araşdırılmışdır.

Əsgər müəllimin digər bir tədqiqatı, "Tərcümə nəzəriyyəsi və təcrübəsi" adlı əsəri xalqlar arasında ədəbi-mədəni əlaqələr baxımından əhəmiyyətli olan tərcümə məsələlərinin nəzəri əsaslarının izahına və ədəbi-bədii materialın tərcüməsi prosesinin şərhinə həsr edilmişdir. Bu əsər həm nəzəri cəhətdən qiymətlidir, həm də onun böyük praktiki əhəmiyyəti vardır. Əsərdə tərcüməşünaslıq sahəsində beynəlxalq təcrübə, bu təcrübənin elmi-nəzəri əsasları, onun tətbiqi məsələləri şərh edilir və tədqiqatçının şəxsi qənaətləri, nəzəri görüşlərinin ümumiləşdirilməsilə yekunlaşır.

Tərcüməşünaslıq və onun əsas vəzifələri, tərcümə sənəti və tərcüməşünaslığın tarixi tərcümə prosesi və onun leksik-qrammatik transformasiyası, tərcümənin növləri və modelləri, qohum dillərdən tərcümə problemləri kimi mövzular əsaslı şəkildə araşdırılmış və elmi nəticələrlə tamamlanmışdır. Kitabda türkcədən Azərbaycancaya və Azərbaycancadan türkcəyə olan tərcümələrin qrammatik leksik cəhətləri, türkcədən tərcümə edilmiş nəşr əsərlərinin, eləcə də poeziya nümunələrinin tərcüməsində yol verilən qüsurlardan bəhs olunur və bu qüsurlara yol verməməyin yolları göstərilir. İstər tədris prosesində tərcüməçilik sənətinin şərh edilməsi, istərsə də tərcüməçiliklə məşğul olan professional tərcüməçilər üçün bu kitabın həm nəzəri, həm də praktiki faydası şübhəsizdir.

Əsgər müəllimin digər bir kitabı - "İzahlı türkcə-Azərbaycanca yalançı ekvivalentlər lüğəti" adlı tədqiqatı onun "Tərcümə nəzəriyyəsi və təcrübəsi" adlı əsərini tamamlayır, tərcümə nəzəriyyəsi və təcrübəsi sahəsində həm nəzəri, həm də təcrübi baxımdan etibarlı istinad mənbəyi kimi əhəmiyyətlidir.

Əsgər müəllim ciddi tədqiqatçı-alim, gözəl tərcüməçi, tanınmış pedaqoq olmaqla yanaşı, eyni zamanda istər ideya-məzmun, istərsə də sənətkarlıq baxımından dəyərli şeirlər müəllifidir. Onun şeirlərinin bir qismi və poemaları "Dilmanc" adlı kitabda nəşr edilmişdir. Məhəbbət lirikası, mənəvi-əxlaqi dəyərlər, həyata, həyati, hadisələrə fəlsəfi baxış onun şeirlərinin əsas mövzularındandır. İctimai-siyasi məsələlər, xüsusilə Qarabağ mövzusu, Vətən torpağının bütövlüyünün təmin edilməsi onun şeirlərində bütün siyasi kəskinliyi ilə əks etdirilmişdir.

Əsgər müəllim bir şeirində deyir ki,

*Dağ təpəyə görə dağdır*
*Təpə düzə görə təpə*
*Dağlar içində dağ ol ki,*
*Buludlar zirvəni öpə.*

Bu sətirlərin müəllifi bütün fəaliyyəti boyu öz işində yaxşıların yaxşısı olmağa çalışmışdır. Hər işdə zirvəyə doğru getmək onun xarakteridir, kredosudur.

